**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**
**ALİ ATTESTASİYA KOMİSSİYASI**

# ƏMR

№ F-66

Bakı şəhəri "01" noyabr 2019 il

**Dissertasiya şurasının yaradılması haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin 4.1-ci bəndinə əsasən "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 4.2.1-ci bəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Geologiya və Geofizika İnstitutu nəzdində 2507.01 – "Geofizika, faydalı qazıntıların geofiziki axtarış üsulları", 2521.01 – "Neft və qaz yataqlarının geologiyası, axtarışı və kəşfiyyatı" ixtisasları üzrə yer elmləri sahəsində fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarının müdafiəsinin təşkili üçün Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında qeydiyyat nömrəsi ED 1.01 olan Dissertasiya şurası yaradılsın.
2. ED 1.01 Dissertasiya şurasının sədri AMEA-nın həqiqi üzvü, geologiya-mineralogiya elmləri doktoru Feyzullayev Əkpər Əkbər oğlu, sədr müavini AMEA-nın həqiqi üzvü, geologiya-mineralogiya elmləri doktoru Məmmədov Pərviz Ziya oğlu, elmi katibi texnika elmləri üzrə fəlsəfə doktoru, dosent Mirzəyeva Dilquşa Ramzey qızı təyin edilsin.
3. ED 1.01 Dissertasiya şurası bu Əmrə əlavədə göstərilən tərkibdə təsdiq edilsin.
4. ED 1.01 Dissertasiya şurasının səlahiyyət müddəti 01.11.2022-ci il tarixinədək müəyyən edilsin.
5. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 29.10.2019-cu il tarixli (protokol № 10-R) qərarı.

**Sədr,**
**professor** **Famil Mustafayev**

Ali Attestasiya Komissiyası
Əsli ilə düzdür
"01" 11 2019 il